**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

***Əlyazması hüququnda***

**NATİQ ƏBÜLFƏT OĞLU ALIŞOV**

# AZƏRBAYCAN ALBANİYASININ XRİSTİAN ABİDƏLƏRİ

(ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)

**5505. 02 - Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI–2014**

Dissertasiya işi Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Antik dövr arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İlyas Atababa oğlu Babayev**
AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Tarix Meyrut oğlu Dostiyev**
tarix elmləri doktoru

**Yunis Məsməli oğlu Nəsibli**
tarix üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** AMEA Milli Azərbaycan Tarixi Muzeyinin **"Arxeologiya elmi fond"** şöbəsi.

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılmış (5505.02 "Arxeologiya") dissertasiyaların müdafiəsini keçirən F/D 01.171 Dissertasiya Şurasının "_12__" _05____ 2014-cü il tarixli iclasında "____"də keçiriləcəkdir.

**Ünvan: Bakı şəhəri, AZ 1043 H.Cavid prospekti 115**

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" "______________" 2014-cü ildə göndərilmişdir.

**F/D 01.171**
**Dissertasiya Şurasının elmi katibi** **Səfər Hüseyn oğlu Aşurov**
**tarix üzrə fəlsəfə doktoru**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanın qədim dövlətlərindən biri olan Albaniyanda yaşayan əhali müxtəlif dövrlərdə təbiət hadisələrinə, günəşə və aya, flora və fauna aləminə, atəşpərəstliyə, bidətçi təriqətlərə sitayiş etmiş, milli dinlərdən yəhudiliyə, dünyəvi dinlərdən xristianlığa və islama etiqad olmuşdur.

Azərbaycan Albaniyasında xristian dini bizim eranın I əsrindən başlayaraq təbliğ edilmiş və IV əsrin əvvəllərində dövlət dini kimi qəbul edilmişdir. Lakin VII əsrdə ərəb işğalları nəticəsində burada dövlətçilik zəifləmiş və VIII əsrdən alban katolikosu seçilən şəxsin təsdiqi bir müddət erməni monofizit kilsəsinə həvalə edilmişdir.

Yaranmış ictimai-siyasi boşluq nəticəsində alban yazısının erməni yazısı olan qrabarla (qədim erməni dili) əvəz olunması prosesi getmişdir. Mövcud ədəbiyyat, tarixi və dini arxiv sənədləri bu yazıya çevrilərək saxtalaşdırılmışdır. Alban dövlətçiliyi üçün əhəmiyyət kəsb edən bəzi mənbələr tədricən məhv edilmişdir.

Lakin həmin dövrdə Alban dövlətçiliyində aparıcı mövqeyə malik kilsə sistemi asılılığı heç də ərazinin tam olaraq missionerlərin nəzarətində olmasına şərait yaratmamışdı. Belə ki, ilk vaxtlar əsasən düzən yerlərin işğalı ilə kifayətlənən ərəblər dağlıq ərazidə yaşayan alban xristian əhalisindən dini can vergisi olan cizyənin alınması ilə kifayətlənmişlər.

Aran bölgəsində yaşayan əhalinin islamlaşma prosesi dağlıq ərazilərə nisbətən tez baş vermişdir. Bu isə həm Kiçik Qafqazın, həm də Böyük Qafqazın dağlıq bölgələrində yaşayan və əsrlər keçdikcə öz dini ibadətlərini monofizit (Kiçik Qafqaz) və diofizit (Böyük Qafqaz) təriqəti əsasında həyata keçirən alban əhalisinin dini və etnik şüuruna yad dini mədəniyyət ünsürlərinin nüfuz etməsinə, onların dini əqidələrindən irəli gələrək milli kimlik şüurunun dəyişməsi prosesinin getməsinə şərait yaratmışdır.

VIII əsrdə Azərbaycan Albaniyası dövlətində mərkəzi hakimiyyətin zəifləməsi ilə əlaqədar olaraq dövlət sərhədləri daxilində xristian təmayüllü Alban dövlətinin varisləri olan Kambisena (Eretiya VIII-XI əsrlər), Sünik (XI-XII əsrlər) və Xaçın-Alban knyazlıqları (XII-XV əsrlərdə) biri digərini əvəzləmişdir. XV-XIX əsrlərdə isə bu knyazlıqlar (məlikliklər) Alban katolikosunun dini rəhbər vəzifələrini yerinə yetirmişdir.

XIX əsrin əvvəlində Rusiya imperiyasının işğalçılıq siyasəti nəticəsində Azərbaycan tarixi torpaqlarının bir hissəsini itirir. Rusiya və İran arasında Azərbaycan torpaqları uğurunda aparılan işğalçı müharibənin nəticəsi olaraq Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Azərbaycan torpaqları bölüşdürülür.

Alban katolikosluğunun 1836-cı ildə ləğvi ilə Azərbaycan ərazisində mövcud olan bütün xristian mədəni irsi yuxarıda qeyd edilən müqavilələr əsasında İrəvan, Naxçıvan və Qarabağ ərazilərinə köçürülən xristian monofizit erməni əhalinin ixtiyarına tabe edilir. Bununla da, Azərbaycanın alban xristian abidələrinə qarşı maddi və mənəvi terror başlayır.

Dissertasiyanın aktuallığı yuxarıda göstərilən tarixi faktları əsas götürərək Azərbaycan Albaniyasının xristianlıqla əlaqədar maddi və mənəvi mədəniyyətinə sahib çıxmağa cəhd edənlərin gətirdikləri faktların əsassız olduğunu sübut etməkdir. Saxtalaşdırılmaya məruz qalan alban xristian tarixini və onun maddi mədəniyyətinin əsasını təşkil edən xristian abidələrinin tədqiqatını apararaq onların Azərbaycanın maddi və mənəvi mədəniyyətində strateji rola malik olduğunu təqdim etməkdir.

**Tədqiqatın tarixi çərçivəsi.** Tədqiqat işində Azərbaycan Albaniyası ərazisində xristianlığa qədər mövcud dini inanclar, xristianlığın Albaniya ərazisində yayılması, islamın yayılmasından sonra ölkə ərazisində xristianlığın tarixi geniş təhlil edilmişdir.

Dissertasiyada IV-XIX əsrlərdə Azərbaycan Albaniyasının sərhədləri daxilində, onun hüdudlarından kənarda Alban dövləti, Alban knyazlıqları və aftokefal (müstəqil) Alban katolikosluğu tərəfindən inşa edilmiş xristian alban abidələrinin tarixi inkişaf dinamikası tədqiq edilir.

Bununla yanaşı, dissertasiya işində Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş xristian dini dünyagörüşünü özündə əks etdirən maddi və mənəvi mədəniyyət nümunələrinin tarixi inkişaf mərhələsi izlənilmişdir.

**Mövzunun öyrənilmə dərəcəsi**. Azərbaycan Albaniyasının tarixi, arxeologiyası, etnoqrafiyası, epiqrafikası, mədəniyyəti və memarlığı haqqında çoxsaylı ədəbiyyatlar nəşr edilmişdir. Tarixçilərdən K.V.Trever, Z.M.Bunyadov, Z.İ.Yampoliski, C.Ə.Xəlilov, İ.A.Babayev, F.L.Osmanov, Q.O.Qoşqarlı, K.Q.Əliyev, T.M.Məmmədov, N.İ.Rzayev, S.Y.Qasımova, F.C.Məmmədova, Ü.Ş.Hacıyeva və b. müəlliflər tərəfindən Albaniyanın siyasi tarixi, tarixi-coğrafiyası, siyasi-iqtisadi, sosial münasibətləri və dini iyerarxiya problemləri tədqiq edilmişdir.

Albaniyada xristian dininin arxeoloji materiallar əsasında öyrənilməsi S.M.Qazıyev, R.M.Vahidov, R.B.Göyüşov, F.V.Qədirov, A.Ə.Qaraəhmədova, V.H.Kərimov, A.M.Məmmədov, M.C.Xəlilov, Q.O.Qoşqarlı və digər müəlliflər tərəfindən araşdırılmışdır.

Albaniyanın xristian abidələrinin memarlığı məsələləri P.D.Baranovski, Q.N.Cubinaşvili, K.M.Məmmədzadə, D.A.Axundov, V.H.Kərimov, G.H.Məmmədova, S.X.Hacıyeva və s. müəlliflərin əsərlərində işıqlandırılmışdır.

Dil və yazı problemləri əsasən İ.V.Abuladze, A.Q.Şanidze, Q.A.Kilimov, V.L.Quqasiyan, S.N.Muravyov və Z.N.Aleksidzenin tədqiqat obyekti olmuşdur.

**Mənbəşünaslıq bazası.** Dissertasiyanın tədqiqi üçün tarixi mənbə və ədəbiyyatlar, qonşu Gürcüstan və Ermənistanda tədqiq edilən xristian abidələrinin materialları, Azərbaycan Albaniyasını xristian abidələri ilə bağlı tədqiq edilən məqalələr, monoqrafiyalar, elmi hesabatlar və son illərdə müəllifin özü tərəfindən qeydə alınan çoxsaylı xristian abidələrinin arxeoloji çöl və memarlıq tədqiqatları cəlb edilmişdir.

**Tədqiqatın məqsədi və vəzifəsi.** Dissertasiyada əsas məqsəd Azərbaycan Albaniyasının xristian abidələri ilə bağlı çap olunmuş tarixi, arxeoloji, memarlıq, etnoqrafik və epiqrafik materialları analiz etmək, yeni aşkar edilmiş xristian abidələrini elmi dövriyyəyə daxil etmək, onların tarixi və memarlığının inkişaf dinamikasını, dini özünəməxsusluğunu araşdırmaqdır.

**Tədqiqatın nəzəri və metodoloji əsası** aşağıdakı vasitələrlə həyata keçirilib:

1) Mövcud elmi məqalələrin və tədqiqatların ümumiləşdirilməsi

2) Müxtəlif məkan və vaxtlarda arxeoloji tədqiqatlar aparılmış Azərbaycan Albaniyasına məxsus xristianlıqla bağlı materialların elmi təhlili

3) Abidələrin tarixini və tarixi tiplərinin təsnifatını verməklə onların memarlıq baxımından qonşu ölkələrdə olan oxşarları ilə elmi müqayisəsi

4) Epiqrafik və etnoqrafik materialları dövriyyəyə cəlb etməklə mənəvi mədəniyyət qalıqlarının tədqiqi

5) Tədqiqatı müəllif tərəfindən aparılan xristian abidələrinin arxeoloji tədqiqinin nəticələrinin və memarlıq ölçülərinin dissertasiyaya əlavə edilməsi və s.

**Elmi yeniliyi.** Müəllif xristian abidələri üzrə tədqiqatları

ümumiləşdirmiş, müqayisəli təhlillər aparmış və yeni tədqiqatların nəticələrini işə əlavə etmişdir. Qəbələnin antik dövr arxeoloji ekspedisiyası tərkibində xristianlıqla bağlı abidə və materiallar ilə tanış olmuş, Qəbələ rayonunda aşkar edilən Kilsəlitəpə xristian abidəsində aparılan arxeoloji tədqiqat nəticəsində nəzəri bilik və bacarıqlarını təkmilləşdirmişdir.

Həmçinin Səki, Oğuz, İsmayıllı, Qax, Zaqatala, Balakən, Gədəbəy rayonlarında yerləşən və bu günə qədər tədqiqata cəlb edilməyən ərazilərdə 50-yə yaxın xristian abidələrində çöl tədqiqat işləri aparmış, onlardan 43-nün memarlıq plan ölçülərini götürərək tədqiqata cəlb etmişdir.

**Elmi və praktiki əhəmiyyəti.** Azərbaycan Albaniyasının həm sərhədləri daxilində, həm də ondan kənarda inşa edilmiş xristian abidələrinin kompleks analizi sübut edir ki, regionun xristian dövlətlərinin bu abidələrə varislik iddialarının heç bir elmi əsası yoxdur.

İslam dini Azərbaycan Albaniyasında yayılmamışdan əvvəl burada xristianlıq aparıcı dövlət dini olmuş, mövcud olduğu müddətdə çoxsaylı maddi və mənəvi mədəniyyət abidələri yaratmışdır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Albaniyaya məxsus kilsələr Cənubi Qafqazda inşa edilən digər xristian abidələrindən müəyyən şəkildə fərqlənmişdir. Bu fərq abidələrin memarlıq plan quruluşlarında və Albaniyada baş vermiş təriqət dəyişikliyi nəticəsində kilsələrin altar hissəsində daha çox özünü büruzə vermişdir.

Dissertasiyanın nəticələrindən aşağıdakı məqsədlər üçün istifadə etmək olar:

1) Azərbaycan Albaniyası xristian abidələrinin öyrənilməsində

2) Xristian dininin yayılma arealının tədqiqində

3) Azərbaycan tarixinin bir sıra mühüm problemlərinin əsaslı tədqiqində

4) Qafqazın xristian abidələrinin ümumiləşdirilməsi işində

5) Orta məktəb və universitet tələbələri üçün mühazirələrin hazırlanmasında və s.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun "Antik dövr arxeologiyası" şöbəsində hazırlanmışdır. Şöbədə dissertasiyanın İnstitutun digər şöbələri ilə birlikdə iki müzakirəsi keçirilmiş və müdafiəyə məsləhət bilinmişdir.

Dissertasiyanın əsas hissələri elmi jurnallarda nəşr edilmiş,

dissertasiya ilə bağlı müəllif müxtəlif yerli və beynəlxalq konfranslarda məqalə və məruzələrlə çıxış etmişdir.

Müəllif işin tədqiqi dövründə material və abidələrlə tanış olmaq məqsədi ilə Qəbələ arxeoloji ekspedisiyasının, Şəmkir-Qaracəmirli Beynəlxalq arxeoloji ekspedisiyasının, Qazax-Ağstafa rayonları ərazisində aparılan arxeoloji kəşfiyyat qazıntılarının, Paleolit arxeoloji ekspedisiyasının Böyük Qafqazın cənub (Qax, Zaqatala, Balakən) dəstəsinin və Gədəbəy arxeoloji ekspedisiyasının tərkibində iştirak edərək xristian abidələrində arxeoloji çöl-tədqiqat işləri aparmışdır.

Dissertasiyanın yazılması dövründə müəllif Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi hesabatlarını və Milli Azərbaycan Tarix Muzeyinin arxeoloji fondunun materiallarını tədqiqata cəlb etmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, üç fəsil və nəticədən ibarətdir. Dissertasiyaya istifadə edilmiş ədəbiyyatın siyahısı, arxeoloji qazıntılar zamanı tədqiq edilən xristian abidələrinin şəkilləri, memarlıq plan ölçüləri əlavə edilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "İşin ümumi səciyyəsi" adlanan hissəsində mövzunun aktuallığı əsaslandırılır. Tədqiqatın tarixi çərçivəsi, mövzunun öyrənilmə dərəcəsi, mənbəşünaslıq bazası, məqsədi və vəzifəsi, nəzəri və metodoloji əsası, elmi yeniliyi və praktiki əhəmiyyəti, aprobasiyası, quruluşu və həcmi haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Azərbaycan Albaniyasında xristianlıq"** adlanır və üç paraqrafdan ibarətdir. **"Xristianlığa qədər dini görüş və inanclar"** adlanan birinci paraqrafda Azərbaycan Albaniyasında xristianlığa qədərki dini görüş və inanclardan bəhs edilir.

Burada antik dövrə aid yazılı məlumatlara əsasən Azərbaycan Albaniyası ərazisində yerləşən məbədlər, dini həyat, dindarların ölkənin sosial və siyasi həyatda tutduqları mövqe və həyata keçirdikləri dini ayinlər haqında məlumat verilir. Azərbaycan Albaniyasının tarixi haqqında günümüzə qədər gəlib çıxan ilk orta və orta əsrlərə aid yerli mənbə olan Moisey Kalankatuklunun "Alban tarixi" əsəri əsasında ölkədə mövcud təriqətlər və onlarla alban carlarının apardıqları mübarizəyə toxunulur.

Burada qeyd edilən məlumatlara əsasən aşağıdakı nəticəyə gəlinmişdir ki, xristian dininin Azərbaycan Albaniyasında yayılması və

dövlət dini kimi qəbul prosesi heç də sürətlə getməmiş, yerli dini inanclarla uzun müddət ziddiyyətdə olmuşdur. Bütün faktlar bir daha onu göstərir ki, Azərbaycan Albaniyasında politeizmdən monoteizmə keçid dövrü uzun bir tarixi mərhələni əhatə etmişdir.

Birinci fəslin ikinci paraqrafı **"Xristianlığın Azərbaycan Albaniyası ərazisində yayılması"** adlanır. Burada əsasən I əsrdə yaranan və dünyəvi dinlərdən biri olan xristianlığın 311-ci ildə Roma imperiyası tərəfindən tanınması, 313-cü ildə Milan fərmanı ilə azad din elan edilməsi və 325-ci ildə Nikey yığıncağında imperiya dininə çevrilməsi faktlarına toxunulmuşdur.

Azad din elan edildikdən sonra xristianlığın mahiyyəti ilə bağlı formalaşan dini məktəblər, xristianlığın tədqiq olunan dövrü ərzində yaranan diofizit, nestorian və monofizit təriqətlərinin mahiyyəti yerli və xarici müəlliflərin əsərlərinə istinadən şərh edilmişdir.

Albaniyada ilk xristian icmaları Yerusəlimdən və Suriyadan olan həvarilərin (apostolları) vasitəsi ilə yayılmasına cəhd edilmiş və I-III əsrləri əhatə edən birinci mərhələdə xristianlığın Roma imperiyası tərəfindən rəsmən tanınmasına qədər xristianlıq Azərbaycan Albaniyasında heç bir uğur əldə edə bilməmişdir.

Xristianlığın ikinci mərhələsi birincidən fərqli olaraq artıq siyasi əhəmiyyət kəsb etməyə başlamış və bu mərhələyə Alban çarı Urnayr rəhbərlik etmişdir.

Tarixi ədəbiyyatda çar Urnayrın hakimiyyətdə olduğu illər 313-371-ci illər olduğu göstərilir. M.Kalankatuklunun "Alban tarixi" əsərində qeyd olunur ki, "Urnayrın ölümündən sonra albanlar gənc Qiriqorisi özlərinə katolikos seçdilər". İkinci mərhələdə ilk alban katolikosu olan Qiriqoris isə Alban tarixinə əsasən Məskut hökmdarı tərəfindən qətlə yetirilmişdir. Tarixi mənbələrə əsasən Qiriqoris 330-338-ci illərdə Albaniya və İberiyanın katolikosu olmuşdur.

Buradan belə bir fikir irəli sürmək olar ki, Alban tarixində iki Urnayr olmuşdur. I Urnayr 314 və 326-cı illərdə xristianlığı yenidən Albaniyada dövlət səviyyəsinə qaldıraraq 330-cu ildə vəfat etmişdir. I Urnayrın ölümündən sonra, 330-cu ildən 371-ci ilə qədər hakimiyyətdə II Urnayr olmuşdur.

Xristianlığın Azərbaycan Albaniyasında rəsmi tanınmasına gəldikdə aparılmış tədqiqatlar nəticəsində Albaniyada xristianlığın dövlət tərəfindən tanınması və dövlət dini kimi qəbul edilməsi Roma imperiyasında xristianlığın rəsmən tanınması və dövlət dini elan edilməsi

prosesindən bir il sonra baş vermişdir. Belə ki, 313-cü ildə Roma imperiyasında Milan fərmanı ilə xristianlığın azad din elan edilməsindən qərarı, Albaniyada 314-cü ildə tətbiq edilmişdir. 325-ci ildə Nikey yığıncağında xristianlığın Roma imperiyasının dini elan edilməsi sonra 326-cı ildə Albaniya dövləti tərəfindən də bu qərar qəbul edilmişdir. Bunun birinci səbəbi xristianlığın Albaniyada həvari (apostol) dövrünü yaşaması və xristian dünyasının tərkib hissəsi olması idisə, ikinci səbəbi Alban hökmdarı I Urnayrın siyasi fəaliyyəti ilə bağlı olmuşdur.

Xristianlığın rəsmən tanınmasından sonra mövcud problemlərdən biri də onun mahiyyəti ilə bağlı yaranmış təriqətlərin Albaniyada mübarizəsidir. Bu məsələyə aydınlıq gətirilməsi üçün artıq V əsr də daxil olmaqla çağırılmış IV Ümumdünya kilsə məclisinin qərarları ilə Albaniyanın dini iyerarxiyası razılaşmışdır. Artıq ikinci mərhələdə xristianlığın siyasi əhəmiyyət kəsb etməsi mövcud dinin mahiyyəti ilə sonradan yaranmış nestorian, monofizit və albanların daxil olduqları diofizit təriqətləri arasında mübarizə başlanmışdır.

Lakin Alban kilsəsinin müstəqilliyinin bərqərar edilməsində 488-ci ildə çağırılan Aquen məclisi mühüm rol oynamışdır. M.C.Xəlilov “Albaniyanın xristian abidələri (IV-X əsrlər)” adlı tədqiqat işində “Aquen kilsə məclisi Alban kilsəsini xristian aləmi ilə passiv mərhələdən çıxarıb aktiv mərhələyə qədəm qoyduğunu və bunun isə öz növbəsində VI əsrin əvvəllərində Qafqaz kilsələrinin mövqeyində kəskin dönüşə səbəb olduğunu göstərir”. O qeyd edir ki, “506-cı ildə Dəbil şəhərində alban, erməni və gürcü kilsələri diofizit Bizans ilə əlaqəni kəsib monofizit cərəyanını seçir və səbəbini Bizans imperatoru Anastasiyanın (491-518) monofizitləri müdafiə etməsi ilə əlaqələndirir”. Tədqiqatçı “518-ci ildə hakimiyyətə gələn diofizit Yustinin Bizansda monofizitlərin təqibini bərpa etdiyini və 527-ci ildə erməni, iber və albanlar arasında uniya haqqında saziş bağlandığını” qeyd edir.

F.C.Məmmədova isə “Кавказская Албания и албаны” monoqrafiyasında “551-ci ildə Dəbildə keçirilən məclisdə erməni kilsəsinin rəsmi olaraq monofizitliyi öz dini ideologiyası elan etdiyini göstərir”. Buradan belə bir nəticə hasil olur ki, 527-ci ildə ittifaqa daxil olan kilsələr 551-ci ilə qədər öz dini siyasi ideologiyalarında müstəqil olmuşdur. Yerli mənbənin verdiyi məlumat görə, 551-ci ildə çağırılan Dəbil məclisində məhz bu səbəbdən Alban katolikosu iştirak etməmiş və diofizitliyə müxalif olan nestorian cərəyanının nümayəndələrinin təqibi ilə məşğul olmuş və Albaniyada diofizitlik aparıcı təriqət olaraq

qalmışdır.

551-ci il Dəbil məclisində iştirak etmiş gürcülər tutduqları mövqeyi Z.N.Aleksidzenin fikrini əsas götürərək şərh edən F.C.Məmmədova qeyd edir ki, “gürcü kilsələri özlərinin əvvəlki mülayim xalkedon mövqelərində qalmışdır”. Məhz bu fakt bir daha sübut edir ki 527-ci ildə uniya haqqında saziş bağlayan kilsələr öz dini ideologiyalarında müstəqil olmuşdur.

Alban katolikosu Vironun dövründə Alban kilsəsi özünün çətin vəziyyətini yaşamağa başlayır. Yerli mənbənin verdiyi məlumata görə, 603-604-cü illərdə katolikos Viro Sasanilərə qarşı üsyanın iştirakçısı olmuşdur. Lakin həbs edildikdən sonra katolikos titulu saxlanmaqla 628-ci ilə qədər Sasanilərin paytaxtında qalmışdır.

II Xosrovun təklifi ilə 612-613-cü illərdə İran yığıncağı adlanan məclisdə Alban katolikosu Viro iştirak etmişdir. O, 614-cü ildə II Xosrovun monofizit təriqətini Sasani imperiyası ərazisində yaşayan bütün xristian əhalinin rəsmi dini elan etməsinə baxmayaraq Mehranilər sülaləsindən olan Varaz Qriqora regionda gedən ictimai-siyasi vəziyyətlə əlaqədar olaraq knyaz ləqəbini bəxş etməsi və onun 627-ci ildə Alban katolikosu Viro tərəfindən edilən xaçaçuran (xristianlığa qəbuletmə) mərasimindən keçirilməsinə nail olmuşdur.

İmperator İraklinin 627-ci ildə İberiyaya yürüş etdiyinə diqqət yetirdikdə Albaniyanın əldən verilməməsi üçün II Xosrov xalkedonçu Vironu azad etmiş, Sasani təqibindən Albaniyada məskunlaşmış Mehranilər sülaləsinin nümayəndəsi Varaz Qiriqoru Alban knyazı təyin etməyə məcbur olmuşdur. Lakin qısa zaman kəsiyində 628-ci ildə II Xosrovun ölümü ilə Qafqazda xəzərlərin köməyi ilə mövqeyini möhkəmləndirən diofizit Bizans İmperatoru I İrakli tərəfindən təkrarən yuxarıda qeyd olunan mərasimlər icra edilmişdir.

Azərbaycan Albaniyası ərazisi xristianlığın yayılmasından sonra bu dinin mahiyyətinə münasibətdə formalaşan təriqətlərin mübarizə meydanına çevrilir. Lakin sonradan bu mübarizə sırf dini xarakter kəsb etməyib region uğrunda öz hegemonluğunu təsbit etmək istəyən Bizans və Sasani imperiyalarının siyasi alətinə çevrilir. Diofizit təriqətli Bizans imperiyasının monofizit və nestorian təriqətlərini təqib etməsi zərdüşt dininin hakim olduğu Sasani dövlətinin bu dini təriqətlərdən siyasi məqsədlər üçün istifadəsinə şərait yaradır. Azərbaycan Albaniyası dövləti ərazisində ilk gündən hakim təriqətə çevrilən diofizitlik müəyyən dövrlərdə qısa müddət ərzində monofizitliyin təsir dairəsinə düşsə də

ərəb işğallarına qədər öz müstəqilliyini qoruyub saxlaya bilmişdir.

Birinci fəslin üçüncü paraqrafı **"İslam dininin yayılmasından sonra əhalinin bir hissəsinin xristianlıqda qalması"** adlanır. Bu paraqrafda əsasən ərəb işğalından sonra regionda gedən ictimai-siyasi proseslərə toxunulmuşdur.

Belə ki, İslam dininin yayılması dövründə Qafqazda ictimai-siyasi vəziyyət olduqca gərgin olaraq qalırdı. Ərəb xilafətinin İranın işğalından sonra regionda mövqeyini gücləndirmək üçün Sasani dövlətinin siyasətini davam etdirərək diofizit Bizansına müxalif olan monofizitləri müdafiə etməsi mövcud vəziyyəti daha da gərginləşdirmişdir. 681-ci ildə Alban çarı Cavanşirin öldürülməsi ilə, daha dəqiq desək, M.Kalankatuklunun "Alban tarixi" əsərində Alban katolikosu müqəddəs Yelizarın 687-ci ildə vəfatından sonra vaxtilə Girdiman yepiskopu olmuş, xalkedon-diofizit təriqətinə mənsub olan Nerses Bakurun monofizit kimi katolikos seçildiyini, lakin bir müddətdən sonra xalkedon (diofizit) təriqətinə qayıtdığı qeyd edilir.

M.Kalankatuklu yazır ki, "o katolikos taxtına oturanda monofizitliyə sadiq qalacağı haqqında Böyük Arran yepiskopu İovelə yazılı iltizam verərək onu öz möhürü ilə təsdiqləmiş, lakin İovel ölənə qədər 14 il müddətinə bu niyyətini həyata keçirə bilməmişdir". Mənbədə qeyd olunur ki, "...Onun tərəfdarı Məlikə Sparama Nersesə yardım etdi, onun və tərəfini saxlayan əyanların köməyi ilə o, Nerses-Bakurun kilsələrinin çoxunun səcdəgahlarını sökdürdü".

Məhz təriqətin dəyişməsi kilsələrdə səcdəgahların sökülməsi ilə yekunlaşır ki, Nerses Bakur da monofizit təriqətindən diofizit təriqətinə keçərkən səcdəgahların sökülməsi məsələsinə xüsusi diqqət yetirmişdir. Azərbaycan Albaniyasının xristian abidələrində aparılmış arxeoloji qazıntılar nəticəsində kilsələrin altarının ilkin vəziyyətinin döşəmə səviyyəsindən 50 sm hündürlükdə yerləşməsi müəyyən edilmişdir. Arxeoloji tədqiqatlar nəticəsində Alban kilsə altarlarının döşəmə səviyyəsindən 50 sm hündürlükdə olduğu təqdirdə, sonrakı dövrlərdə bu hündürlüyün 70 sm ilə 1 m arasında dəyişməsi müəyyən edilmişdir. Məhz Nerses Bakurun kilsələrin çoxunun səcdəgahlarını sökdürməsinin səbəbi 687-ci ildən sonra yaranmış olan bu fərqin aradan götürülməsinə yönəlmişdir. Buradan belə bir nəticə hasil olur ki, diofizit və monofizit kilsələrinin memarlığında əsas təriqət fərqi mənbənin göstərdiyi kimi, birbaşa səcdəgahla bağlı olmuşdur.

Yerli mənbənin verdiyi məlumata əsasən 14 ildən sonra 701-ci ildə

"Nerses Bakurun Albaniyanı diofizit təriqətinə keçirmək cəhdi ona qarşı əl qoyanların lənət oxuyub erməni katolikosu İlyaya məktub yazaraq ondan kömək istəmələrinə səbəb olur və xəlifə Əbdül-Məlikin əmirinə əsasən Albaniya katolikosu erməni katolikosu İlya tərəfindən həbs olunaraq zindana salınır.

M.Kalankatuklu yazır ki, "Nerses devrildikdən sonra (704) başda alban knyazı Şero olmaqla bütün alban feodal əyanları Əbdül-Məlikin divanı qarşısında İsanın iki təbiətinə ibadət edəcəkləri halda qılıncdan keçirilmələrinə dair öhdəlik götürdülər".

704-cü ildə Bərdə hadisəsinə yuxarıda qeyd olunan tədqiqat işində Kilsə məclisi kimi yanaşan M.C.Xəlilov həqiqətən də "əslində burda iki müstəqil kilsənin, Alban və Erməni kilsəsinin birliyinin yaradıldığını qeyd edir". Göründüyü kimi, hər iki tərəf yalnız özlərinə katolikos seçərkən bir-biri ilə razılaşmalı idilər. Bu məsələ bir daha M.C.Xəlilovun da qeyd etdiyi kimi, "kilsə ittifaqının yaranmasını özündə əks etdirir." 704-cü ildə alban-erməni kilsə birliyi yaradılandan sonra bunun əsas təşəbbüskarı olan Şero Varaz-Tiridatın Bizansda olmasından istifadə edərək hakimiyyəti mənimsəmişdir.

Lakin M.Kalankatuklunun digər məlumatına görə, "ərəb işğalları zamanı Məhəmməd ibn Mərvan Alban knyazı Şero və onun əyanlarını əvvəlcə Tarona, oradan da Suriyaya apardı. Bu əhvalat erməni təqvimi ilə yüz əlli üçüncü ildə (705-ci ildə) baş vermişdi. Varaz-Tiridat romalılar ölkəsində qaldığı beşinci ili (704-cü il iyun 3-də başlayıb, 705-ci il iyun 2-də bitir) "...xilas olub ölkəsinə qayıtdı. Bundan sonra o, ölkəsini taçiklərə (ərəblərə) təslim edib vergiləri yalnız onlara ödədi". Buradan belə bir nəticə hasil olur ki, Bərdə məclisindən sonra Varaz-Tiridat Albaniyaya qayıdaraq qanuni hakimiyyətini bərpa etmiş, knyaz Şero isə həmin ildə əsr alınaraq Suriyaya aparılmışdır. Məhz bu fakt bir daha sübut edir ki Alban dövlətinin rəsmən ləğv edilməsinin 704-cü il Bərdə məclisi ilə heç bir əlaqəsi yoxdur.

M.Kalankatuklunun yazdığına görə, "erməni tarixinin 270 ilinin sonunda (821- may 5 822-ci il may 4) Varaz-Tiridat öldürüldü. Həmin Varaz Tiridat Albaniyada nəsildən-nəslə hökmranlıq edən Mihranilərin sülaləsindən idi. O, Albaniyanın birinci knyazı Varaz Qriqordan sonra səkkizinci hökmdar idi." Mənbəyə istinad edib qeyd etmək olar ki, Mehranilər sülaləsindən dördüncü hökmdar olaraq 705-ci ildə hakimiyyətini bərpa edən Varaz-Tiridatdan 822-ci ildə öldürülən Varaz-Tiridat da daxil olmaqla dörd alban çarı hakimiyyətdə olmuşdur. Bu

məlumat Albaniyada dövlətçiliyə ərəblər tərəfindən son qoyulma tarixini 705-ci ildən götürülmə faktını inkar edir.

M.Kalankatuklunun yazdığına görə, "Erməni təqviminin iki yüz səksən altıncı ilində (837-ci ilin may 1-i, 838-ci aprelin 30-u) Bağdaddan qəflətən on iki min atlı qoşun çıxıb Albaniya ölkəsinə basqın etdi. "...Elə həmin ildə çar nəslidən olan Səhl ibn Sumbat ... qiyamçı Babəki tutdu və onu əmirəlmömininin (xəlifənin) ixtiyarına verdi. Öz səyinə görə o, xəlifədən böyük mükafat aldı, Erməniyyə, İberiya və Albaniya üzərində ali hakimiyyət ona verildi və o, bu ölkələrdə çar kimi hakimlik etdi".

M.Kalankatuklu qeyd edir ki, "Erməni təqviminin üç yüzüncü ilinin axırında (28 IV 851-26 IV 852) erməni və Albaniya knyazları...ərəblər tərəfindən tutulub zəncirlənmiş halda evlərindən çıxarılaraq zorla Bağdada aparıldılar". Bu hadisədən on il sonra 861-ci ildə Albaniyanın şimal-şərq ərazisində ərəb mənşəli Məziyyədilər sülaləsinin başçılığı ilə ilk feodal dövlət olan Şirvanşahlar öz müstəqilliyini elan etmiş və Azərbaycanın tarixi torpaqlarında biri digərini əvəzləyən feodal dövlətləri yaranmağa başlamışdır.

M.Kalankatuklunun yazdığına görə, "Erməni təqviminin üç yüz qırx ikinci ilində (17 IV 893-16 IV 894) ... mömin knyaz Hammam tənəzzül etmiş Albaniya çarlığını bərpa etdi,...... necə ki, Aşot Baqratuni bunu Erməniyyədə etmişdi". Lakin M.C.Xəlilov tədqiqatında Gəncəli Kirakosa əsaslanaraq bu hadisəni düzgün olaraq erməni təqvimi ilə 334-cü ildə, yəni müasir təqvimlə 885-ci ildə baş verdiyini qeyd etmişdir. Bu fakt bir daha onu göstərir ki ərəb işğalları zamanı tənəzzül etmiş Alban çarlığı ərəb xilafətinin zəiflədiyi dövrdə 885-ci ildə yenidən dirçəlmişdir.

M.Kalankatuklu qeyd edir ki, "822-ci ildə öldürülən Varaz-Tiridatın arvadı ər mərdliyi ilə sağ qalan Sparam adlı qızını götürüb gecənin qorxulu yolunu qət edərək Xaçın qalasında gizləndi. O, qızı Sparamı Sünikin hakimi Səhl oğlu Adarnersehə ərə verdi. Onun nəslindən olan Senekərim (1084-1085-ci ildə) çoxdan yox olmuş Alban çarlığını bərpa edir.

Buradan aydın olur ki, çoxdan yox olmuş çarlıq 885-ci ildə Alban knyazı Hammam tərəfindən bərpa edilən və gürcülər tərəfindən 1008-ci ildə işğal olunmuş Eretiya Alban çarlığının Mehranilər sülaləsi ilə ana xətti vasitəsilə qohum olan Sünik çarı Senekərimi (Yovhannes) tərəfindən bərpa edilmiş dövlət nəzərdə tutulur.

İ.A.Orbeli "Гасан Джалал, князь Хаченский"adlı əsərində qeyd edir ki, "XII əsrin sonlarına yaxın Sünik padşahlığı dağıldı, buradakı

hakim sülalə 1166-cı ildə knyaz Qriqorun və Sumbatın ölümü ilə kəsilmiş oldu”. XII əsrin sonu-XIII əsrin əvvəllərində Arsax ərazisində təşəkkül tapan Xaçın knyazlığını İ.A.Orbeli “qədim Albaniyanın bir hissəsi” adlandırırdı. Arsax-Xaçın knyazlığının mərkəzi Xaçınçay və qismən də Tərtər çayının hövzələrini əhatə edirdi. Alban-Xaçın knyazlığının tarixini araşdıran İ. A. Orbeli qeyd edir ki, “1215-ci ildən bu knyazlığın başında alban Mehranilər nəslinə mənsub olan Həsən Cəlal (1215-1261) dururdu”. Yeddi cildlik Azərbaycan tarixinin III cildində qeyd edilir ki “XV əsrdə alban Həsən Cəlalın nəsli (Cəlalilər) Qaraqoyunlu Cahanşahdan “məlik” titulu aldı. Sonralar Cəlalilər nəsli beş muxtar Alban feodal knyazlığına (Gülüstan, Cəraberd, Xaçın, Vərəndə, Dizaq məlikliyinə) parçalandı”. Lakin İ.A.Orbeli qeyd olunan məqaləsində göstərir ki, “Xaçın Alban knyazlığının XII əsrdə, 1182-ci ildə Cəlalın babası Həsən tərəfindən oğulları arasında 6 (5) knyazlıqlara parçalanması prosesi artıq aparılmışdır”.

Gəncəsər haqqında yazılmış tarixi arayışda qeyd edilir ki, “Həsən-Cəlal nəsli XV əsrədək Xaçında dünyəvi hakimiyyətə malik olmuş, XV əsrdə məlik titulu alan bu nəslin nümayəndələri həm də Gəncəsərdə yerləşən Alban avtokefal (müstəqil) apostol kilsəsinin patriarx-katolikosları vəzifələrini yerinə yetirmişlər. Onlar bu zamandan etibarən dünyəvi hakimiyyətlə bərabər, 1836-cı ildək Gəncəsər Alban katolikosluğunun dini hakimiyyətin rəhbəri olmuşlar”.

Tanınmış rus tarixçi-etnoqrafı V.L.Veliçko bununla bağlı “Русское дело и междуплеменные вопросы” əsərində yazır: “XIX əsrin əvvəllərinə kimi ayrıca Avqan (Alban), yaxud da Qandzasar (Gəncəsər) katolikosu var idi, hansı ki, Eçmiədzin kilsəsi ilə rəqabət aparırdı, sonuncudan müstəqil idi”. Əgər Alban katolikosluğu tam olaraq VIII əsrdə monofizitliyi qəbul etmiş və əhalisi erməniləşmiş olsaydı, onun 12 əsr sonra 1836-cı ildə ermənilərin tələbi ilə Çar Rusiyası tərəfindən ləğv edilməsinə ehtiyac qalmazdı.

Azərbaycan Albaniya dövləti ərazisində xristian dini yayıldıqdan sonra bu din aparıcı mövqeyə malik olmaqla xristianlığı özündə əks etdirən çoxlu sayda maddi və mənəvi mədəniyyət abidələri yaratmışdır. Alban katolikosluğu sonrakı dövrlərdə monofizit erməni kilsəsinin təsir dairəsinə düşsə də, öz müstəqilliyini XIX əsrə kimi qoruyub saxlaya bilmişdir.

Dissertasiyanın II fəsli **“Azərbaycan Albaniyasının xristian abidələrinin təsnifatı”** adlanır. **“Məbəd və kilsələr”** adlanan birinci

paraqraf altı yarımfəsilə bölünməklə aşağıdakı mövzuları özündə əks etdirir. Bura **Mağara məbədlər, dairəvi məbədlər, sövmə və yarımqazma kilsələr, xaçvari kilsələr, bir, iki və üç nefli kilsələr, trapesvari kilsələr** daxildir. **Mağara məbədlər** adlı birinci yarım paraqraf Azərbaycan Albaniyasında həvari (apostol) dövrü və ərəb işğalları zamanı təqiblərdən xilas olmaq üçün xristian əhalinin gizli fəaliyyət yerləri olan məbədlərə həsr olmuşdur. Bu məbədlər dağətəyi və dağlıq bölgələr üçün xarakterikdir. Tədqiqat işinə Gədəbəydə Şora zağası, Kəlbəcərdə Armudlu tala, Ağdamda Bozdağ, Qazaxda Aveydağ mağaraları cəlb edilmişdir.

**Dairəvi məbədlərə** aid ikinci yarım paraqraf Qax rayonundakı Ləkit, Qəbələdəki Kilsədağ, Zaqataladakı Mamrux, Xocavənddəki Möhrənis məbədləri və onların analoji təhlilinə həsr edilmişdir. Azərbaycan Albaniyası memarlığında özünəməxsusluğu ilə seçilən dairəvi məbədlər dünyanın yalnız beş yerində aşkarlanmış və tədqiq edilmişdir. Bunlar Suriya ərazisindəki Bosra məbədi, Türkiyənin Ani şəhərindəki Qaqikaşen, Gürcüstan ərazisindəki Bana, Ermənistanda Göymələklər (Zvartnost) və İşxani məbədlərdir. Bu məbədlərin dairəvi özüllü tikilməsi birinci fəslin birinci paraqrafında bəhs edilən Azərbaycan Albaniyasında "Xristianlığa qədər dini görüş və inanclar" məsələsini müəyyən qədər özündə əks etdirmişdir. Belə ki, Albaniya əhalisi arasında məhz politeizm dövründə flora və fauna aləmini totemləşdirməklə yanaşı, səmavi cisimlərə, Aya, Günəşə inam geniş yayılmışdır. Bütün bunları nəzərə alıb dairəvi özül əsasında tikilmiş abidələrin məhz Aya və Günəşə inamdan irəli gəldiyini qeyd etmək mümkündür. Xristianlığın geniş yayılmasından sonra bu abidələr dağıdılmamış və onlardan kilsə kimi istifadə edilmişdir.

**Sövmə və yarımqazma kilsələr** adlanan üçüncü yarım başlıqda Azərbaycan Albaniyasında arxeoloji qazıntılar zamanı tədqiq edilmiş çox saylı sövmə və yarımqazma kilsələrdən bəhs edilir. Bu günə qədər tədqiq edilən sövmələrə yanaşı tərəfimizdən Zaqatala rayonunun Paşan və Mamrux kəndlərində qeydə alınmış sövmələr də əlavə edilmişdir. Yarımqazma kilsə ilk dəfə tərəfimizdən aparılan tədqiqatlar zamanı Qəbələ rayonunun Nic kəndinin Kilsəlitəpə adlı ərazisində aşkar edilmişdir.

Sövmələrin əsasən iki funksiyası olmuşdur. Birincisi səfər üstə olan şəxslərin dini ibadətlərinin həyata keçirməsi ilə əlaqədar karvan və ticarət yollarının üstündə inşa edilmişdir. İkinci funksiyası kilsə və monastırların

həyətyanı sahələrində keşiş və yepiskopların qəbirüstü abidəsi kimi inşasıdır. Yarımqazma kilsələrin Azərbaycan Albaniyası ərazisində yayılması bu tip abidələrin təqiblərə məruz qalan xristian əhalinin öz dini tələblərini ödəmək üçün dağlıq və dağətəyi bölgədə mağara tipli sığınacaq yerlərinin olmaması səbəbindən inşa edildiyini qeyd etmək olar.

**Xaçvari kilsələr** adlanan dördüncü yarımbaşlıqda xristianlığın əsas simvolu olan xaç planlı bünövrə əsasında inşa edilən kilsələr tədqiq edilmişdir. Zəngilanda Şərifan, Gədəbəydə Pir Cavanşir, Ağdamda Beşikdağ, Daşkəsəndə xaçvari kilsə, Qazaxda Aşağı Əskipara və Aveydağ, Zaqatalada Qəbizdərə və Pipan, Şəkidə Orta Zəyzit, Dərbənd ərazisində inşa olunan xaçvari kilsələr cəlb olunmuşdur. Əksər xristian ölkələrində olduğu kimi, Azərbaycan Albaniyası ərazisində də xaçvari kilsələr müəyyən qədər çoxluq təşkil etməsi regionda xristian dini dünya görüşünün yayılma səviyyəsini özündə əks etdirir. Məhz bu amili Albaniya ərazisində xristianlığın lokal xarakter daşımadığının göstəricilərindən biri hesab etmək olar.

**Bir, iki və üç nefli kilsələr** adlı yarımbaşlıqda Azərbaycan ərazisində tədqiq olunan aşağıdakı kilsələr tədqiqata cəlb edilmişdir. Mingəçevirdə dörd kompleksdən ibarət xristian məbədləri, Şəkidə Müqəddəs Yelisey, Bideyiz, Baş Küngüt, Ağdamda Govurqala, Qazaxda Aveydağ, Tatlı, Şəmkirdə Çaparlı, İrmaşlı, Ağdaşda Şıxlar, Oğuzda rayonunda Calut, S.Qazıyev və H.Naxçıvanlı küçələrindəki kilsələr, Balakəndə Mazımqaray, Nur kilsəsi, Xocavənddə Qırmızıkilsə, Gədəbəydə Əyrivəng, Dərbəndin Yuxarı Ciryurt şəhər qəbiristanlığı yaxınlığında tədqiq edilmiş iki kilsə, hal-hazırda Cümə məscidi kimi istifadə edilən məscid, Tovuzda Yuxarı Öysüzlu, Yanıqlı, Əsrik Cırdaxan, Torpaqqala, Göygöldə Çaykənd, Band, Yeni Zond kəndlərində yerləşən kilsələr, Bərdə şəhərində Kilsəyeri, Ağcabədidə Təzəkənd, Zaqatalada Buxovlu, Pipan, Cudulu-Binə, Goranboyda Xarxaput məbədi, Qaxda Qum bazilikasında aparılmış tədqiqatlar ümumiləşdirilmişdir.

Bununla yanaşı, tərəfimizdən Qax rayonunun Güllük, Əmircan, Alatəmir, Çinarlı, Ləkit-Malax, Süskənd kəndlərindəki kilsələrdə, rayonun mərkəzindəki Təndirli və İlisu qəsəbəsindəki Qarabulaq kilsəsində, Balakən rayonunun Arılıqbinə, Poçtbinə, Cicixana, Xalatala kilsəsində, Gərəkli kəndində Cınxlılar, Qazma ərazisində Darvaz, Şambul kəndində İsaqlıgirmə kilsəsində, Gədəbəy rayonunun Turşsu kəndində Kilsəli abidəsində, Oğuz rayonunun şimal-şərqində yerləşən

Müqəddəs Yelisey və Qarabulaq kəndindəki iki kilsədə, İsmayıllı rayonunun Qalagah və Zaqatala rayonunun Beretbinə qoruğunda yerləşən kilsələrdə çöl-tədqiqat işləri aparılmış və onların ilkin memarlıq ölçüləri götürülərək tədqiqat işinə əlavə edilmişdir.

**Trapesvari kilsələr** yarımbaşlıqının yazılmasının səbəbi tərəfimizdən Qax, Balakən, Qəbələ və Gədəbəy rayonlarında aparılmış çöl tədqiqatları zamanı düzbucaq plan quruluşlu abidələrlə yanaşı, trapesvari (iki tərəfi paralel və iki tərəfi paralel olmayan düzbucaq) kilsələrin də aşkar edilməsi olmuşdur. Belə ki, Qax rayonunda Zərnə kəndində, Qaxbaşı ərazisində, Balakənin Aşağı Qullar kəndinin mərkəz və yuxarı hissəsində yerləşən iki kilsədə, Qaraca Binə kəndinin Dəvəboynu adlı ərazisində Godoş kilsəsində, Hənifə kəndində Murğuztala (Roçəhməd) kilsəsində, Gərəkli kəndində Dağılmayan kilsədə, Gədəbəy rayonun Qala kəndindəki Qala və Govdu kilsələrində, Arabaçı kəndində Qızılkilsə və Novoivanovka kəndindəki Ağkilsədə (Miçetka) aparılan çöl tədqiqatları zamanı bu kilsələrin memarlıq quruluşlarının trapesvari olması müəyyən edilmişdir. Aparılmış tədqiqatlar zamanı trapesvari kilsələr təkcə Azərbaycan ərazisi ilə məhdudlaşmayıb Şərqi Gürcüstan və Ermənistan ərazilərində də geniş yayıldığı müəyyən edilmişdir.

Tədqiqata cəlb edilmiş kilsələrdən Qəbələ rayonunun Nic kəndində yarımqazmada trapesvari inşa olunan Kilsəlitəpə abidəsində arxeoloji tədqiqatlar aparılmışdır. Tərəfimizdən tədqiq edilən bu abidələrin nəyə görə məhz düzbucaqlı deyil, trapesvari tikilməsi araşdırılmış, bunun səbəbi hələ ki, tam müəyyən edilməsə də, yekun olaraq belə bir fikir irəli sürmək olur ki, Azərbaycan Albaniyasının kilsə tikintisində bu tip memarlıq üslubu olmuşdur.

İkinci fəslin II paraqrafı Albaniya ərazisində mövcud olan **monastırlara** həsr edilmişdir. Laçında Amaras, Ağdərədə Gəncəsər, Müqəddəs Yelisey, Kəlbəcərdə Xotavəng, Böyük Aran, Arzuxatun, Xudavəng, Qaxda Kürmüx, Ləkit Kötüklü kəndində yerləşən iki monastır, Gədəbəydə Həmşivəng, Mahrasa, Naxcıvanda Qızılvəng monastırları tədqiqata cəlb olunmuşdur.

Tərəfimizdən Qaxın Zərnə kəndinin şimal-şərqində La (Lal)-şirin adlanan ərazidə ilk orta əsrlərə aid qala daxilində yerləşən monastır, Gədəbəydən cənuba doğru Çobandağ silsiləsinin şimal-şərq ətəyində yerləşən Çanaqçı, Novosaratovka və Çaldaş kəndlərindəki monastırlar və Yenikəndə Kilsədərəsi monastırı tədqiq edilmişdir. Aparılmış tədqiqatlar

nəticəsində Çanaqçı monastırının mənbələrdə orta əsrlərdə bir müddət Gədəbəy ərazisində alban katolikoslarının mərkəzi iqamətgahı olan Çarek-Hamşi olması fikri irəli sürülmüşdür.

Albaniyada monastır tikilməsi ölkə sərhədləri ilə məhdudlaşmayıb Qüds (Yerusəlim) şəhər ərazisində də geniş yayılmışdır. M.Kalankatuklunun "Alban tarixi" əsərində Qüds səhərində tikilən monastırların (vənglərin) Pand, Mruv, Bərdə, Klankatuk, Arsax, Amaras, Araveank və s. adları sadalanır.

İkinci fəslin III paraqrafı **qəbir abidələrinə** aid edilmişdir. Xristian qəbirləri öz forma və tikinti materiallarına görə müxtəlifdir. Arxeoloji tədqiqatlar nəticəsində R.B.Göyüşov "Христианство Кавказской Албании" əsərində aşağıdakı əsas xristian qəbir tiplərini müəyyənləşdirmişdir: 1) torpaq qəbirlər, o cümlədən ağac tirlər və daş parçaları ilə örtülmüş qəbirlər; 2) kərpicdən və ya daşdan inşa edilmiş qutu formalı qəbirlər; 3) daş sarkofaqlar; 4) daşdan və ya kərpicdən inşa edilmiş sərdabələr; 5) katakombalar.

M.C.Xəlilov "Albaniyanın xristian abidələri (IV-X əsrlər)" əsərində xristian qəbir tiplərini təsnifatını aşağıdakı kimi vermişdir: 1) torpaq qəbirlər; 2) çiy kərpic qəbirlər; 3) bişmiş kərpic sərdabələr 4) katakomba qəbirlər; 5) kirəmit qəbirlər; 6) daş qutu qəbirlər; 7) daş sərdabələr; 8) daş sarkofaqlar; 9) qaya sərdabələr. Xristian qəbir tiplərindəki bu müxtəlifliyi coğrafi şəraitdən asılı olaraq dəyişməsini tədqiqatçılar inşaat materiallarının ayrı-ayrı növlərinin yayılması, dəfn ayinlərinin formalaşmasında təkamül prosesi və həmçinin sosial təbəqələşmə ilə izah edirlər.

Bu günə qədər Azərbaycanda aparılan arxeoloji qazıntılar zamanı demək olar ki, bütün regionlarda alban xristian qəbirləri aşkar edilərək tədqiq edilmişdir. Bu bir daha onu göstərir ki, Azərbaycan Albaniyasında xristianlıq lokal xarakter kəsb etməmişdir.

İkinci fəslin IV paraqrafı **"Alban yazı və epiqrafik abidələri"** adlanır. Albaniyada yaradılmış yazının tarixi indiyə qədər geniş şəkildə və hərtərəfli araşdırılmamışdır. Bu məsələyə bir sıra tədqiqatçılar öz tədqiqatlarında müəyyən qədər diqqət yetirmişlər.

Aparılan tədqiqatlar nəticəsində aydın olur ki, alban əlifbası V əsrdə mənşəcə alban olan tərcüməçi Benyamin və alban yepiskopu Yeremiyanın əsaslıköməyi və bilavasitə onların iştirakı ilə IV əsrin sonunda katolikos İohan tərəfindən tərtib edilmiş əlifba əsasında qarqar ləhcəsində bərpa olunmuşdur. Mənşəcə erməni olan M.Maştosun

Albaniyada fəaliyyəti yaranmış olan alban əlifbasını yerli alban ləhcəsinə uyğun olaraq erməni əlifbasının yaradılmasında ona yaxından kömək etmiş yunan xəttatı Ropanos praktikasını həyata keçirmək, bir sözlə əlifbanı sait və samitlərə bölməklə yekunlaşmışdır.

Alban yazısı VIII əsrdə ərəb işğallarından sonrakı dövrlərdə mövcud olmuşdur. M.Kalankatuklu qeyd edir ki, "Nerses Bakurun yerinə seçilən katolikos monofizit Simeon ölkəni Nersesin törətdiyi iğtişaşlardan qurtarıb azmış kilsəyə həqiqi dinə aid çoxlu qaydalar vəsiyyət etdi. O, bədbəxt Nersesin bütün küfrlə dolu əsərlərini sandıqlara qoyub öz yay iqamətgahı Bərdəkür yaxınlığındakı Tərtər çayına atdırdı".

Buradan da göründüyü kimi, 14 il monofizit kimi katolikos vəzifəsi tutmuş Nerses Bakurun üç il diofizit məzhəbinə quluq etdiyi halda onun bu qədər əsəri ola bilməzdi. Həmin dövrdə Bərdə Alban katolikosluğunun mərkəzi iqamətgahı olduğundan burada alban dini ilə əlaqədar və məhz alban dilində yazılmış sənədlər arxivinin olmasını qaçılmaz edir. 705-ci ildə Tərtər çayına atılan sandıqlarla əsərlər, heç şübhəsiz, məhz xristianlığın yayılmasından sonra diofizit alban katolikosları tərəfindən alban dilində yazılmış dini, tarixi ədəbiyyat və alban leksionarisi (bütün il boyu bayramlarda və dini mərasimlərdə oxunan liturgiya) olmuşdur. Bundan başqa, M.Kalankatuklu qeyd edir ki, ölkəyə şimaldan basqın edən xəzərlər kilsə və müqəddəs yazıları oda vermişlər.

1836-cı ildə ermənilər mərkəzi Gəncəsər olan müstəqil Alban kilsəsinin ləğv edilərək Eçmədzinə tabe edilməsinə nail olduqdan sonra, 1910-1911-ci illərdə müqəddəs Rusiya Sinodunun dini arxivlərdə yerləşən "lazımsız sənədlərin məhv edilməsi" qərarı adı altında Alban kilsəsinə məxsus dini və tarixi əsərləri məhv etdilər. Məhz yuxarıda göstərilən səbəblər nəticəsində alban yazısı və geniş yayılmış ədəbiyyat tədricən aradan çıxmışdır.

Uzun müddət ərzində alban əlifbasının, yazısının olmasını təsdiq edən və onun haqqında ümumi anlayış verən heç bir inandırıcı sənəd tapılmamışdır. Nəhayət, 1937-ci ildə bu sahədə elmi cəhətdən qiymətli kəşf filologiya elmləri doktoru, professor, erməni dili mütəxəssisi İ.V.Abuladzeyə müyəssər olmuşdur. Gürcü alimi İ.V.Abuladze 1937-ci ildə Matenadaranda işləyən zaman alban əlifbasının 7117 saylı əlyazmasını XV əsrə məxsus əlyazmanın içərisindən aşkar etmişdir.

1948-ci ildə Mingəçevir yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı R.M.Vahidov tərəfindən üzərində alban əlifbasının 62

hərfi cızılmış postament, şamdanlar və küp hissələri aşkar olunmuşdur.

1990-2000-ci illərdə gürcü alimi Z.N.Aleksidze Sinay dağında apardığı elmi axtarışlar zamanı bu günə qədər itmiş sayılan Azərbaycan Albaniyasının nadir abidəsini tam əlifbasını aşkar etmişdir. Z.N.Aleksidze hesab edir ki, alban əlifbası çox zəngin dil üçün yaradılmış, yaxud, bu səslərin miqdarı deməkdir. Bir çox qədim dillərdə 52-54 hərf vardır. Z.N.Aleksidzenin Sinay dağında aşkar edilmiş yazıların albanlara məxsus olması fikri M.Kalankatuklunun "Alban tarixi" əsərində öz əksini tapmışdır. Alban tarixinin 50-ci fəslində albanların Qüds şəhərində tikilən monastırlarının (vənglərin) adları və yerləri haqqında geniş məlumat verilmişdir. Beləliklə, aparılan yazılı və arxeoloji tədqiqatlar albanların başqa mədəni xalqlar kimi müstəqil yazıya və əlifbaya malik xalqlardan biri olması sübuta yetirilmişdir.

**"Azərbaycan xristian abidələrinin maddi və mənəvi mədəniyyətimizdə yeri və əhəmiyyəti"** adlı III fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqraf **"Arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələri"** adlanır. Azərbaycan Albaniyasında xristianlığın yayılmasından sonra onun simvolları da daxil olmağa başladı. Bu simvollar əsasən gümüş, tunc, dəmir xaçlar, daş üzərinə oyma yolu ilə həkk edilmiş xaçdaşlar, şamdanlar, buxurdanlar, xaç işarəli üzüklər və möhürlər, üzərində xristianlığın simvolları olan gips və misdən olan lövhələr, küplər üzərində basma yolu ilə həkk edilmiş xaç işarələri, xaç suyuna çəkmək üçün daşlar, Mingəçevirdə aşkar olunan postament daş üzərində qarşı-qarşıya duran və aralarında dirilik ağacı, boğaz hissələrində lent olan tovuz quşu şəkillərinin əksi olan bilərzik və s. ibarət olmuşdur. Aparılan arxeoloji qazıntılar zamanı yuxarıda qeyd olunan əşyaların lokal deyil, müxtəlif ərazilərdən tapılması bir daha Albaniyada xristianlığın yayılma səviyyəsindən xəbər verir.

Bu fəslin ikinci paraqrafı **"Mənəvi mədəniyyətdə xristianlığın izləri"** adlanır. Xristian dininin izləri hal-hazırda Azərbaycanın mənəvi mədəniyyətində qalmaqdadır və onlar aşağıdakı formada əks olunmuşdur.

Qəbələ rayonunun Nic, Mirzəbəyli Oğuz rayonu ərazisində məskunlaşmış və bu günə qədər lokal olaraq öz dinlərini saxlayan Albaniyanın aborigen əhalisi sayılan udinlərin mənəvi mədəniyyətində əks olunmuşdur. Belə ki, udinlərin qədim inamlarında oda sitayiş, günəş və aya pərəstiş elementləri, müqəddəs ağaclara ehtiram hisləri də onlar arasında mövcuddur.

Cavadov Q, Hüseynov R.“Udilər” adlı tədqiqat işində qeyd edirlər ki, Nic udinləri müsəlman əhali ilə birlikdə Qəbələnin Soltan Nuxa kəndindəki Şeşpərbaba adlı ocağa gedər, ora qurban aparar, niyyət edib onu ziyarət edərdilər. Digər bir fakt isə Qəbələ rayonunun Çuxur Qəbələ kəndindən Dızaxlı kəndinə gedərkən yolun sağında, yerli əhalinin Komurad adlandırdıqları ərazidir. Belə ki, yerli sakinlərin verdiyi məlumata görə, bu piri həm müsəlmanlar, həm də qonşu Nic kəndinin xristian udinləri ziyarət edir, niyyət edib qurbanlar kəsir, uşağı olmayan qadınlar isə piri ziyarət etdikdən sonra hamilə qalacaqlarına inanırlar. Udinlərin hal-hazırkı bayramlarından biri məhz Komurad adlanır.

Xristian məbədlərinin pir kimi istifadə olunması ilə bağlı daha bir nümunə Oğuz rayonunun Qarabulaq kəndi ərazisində yerləşən Qarabulaq kilsə-monastırında qeydə alınmışdır. Abidə daxilində və ətrafında bitən ağaclara üzərinə müsəlman sakinlər tərəfindən müxtəlif rəngli parçaların və baş yaylıqlarının bağlanması müşahidə edilmişdir.

Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, sonrakı dövrdə baxımsız qalmış kilsələri müsəlman əhali pir kimi istifadə etmişdir. Bu haqda geniş məlumatı Z.İ.Yampoliski **“Древняя Албания III-I вв. до н. э.”** əsərində vermişdir.

Tədqiqatın “**Nəticə”** hissəsində dissertasiya işinin ümumi xarakteri əks olunmuşdur. Xristian dininin yayılması ilə bu dinə məxsus mədəniyyət nümunələri yaranmağa başlayır. Xristianlığın yayıldığı ilk ölkələrdən biri də Azərbaycan Albaniyası dövləti olmuş və onun sərhədləri daxilində çoxlu sayda maddi mədəniyyət nümunələri yaranmışdır.

Təqdim olunan dissertasiyanın tədqiqinə elmi dövriyyədə olan mənbələr, monoqrafiyalar, kitablar, elmi məqalələr, arxeoloji materiallar və memarlıq nümunələri cəlb edilmiş və onlar üzərində aparılan tədqiqatlardan belə nəticə əldə edilmişdir ki, xristianlıq Albaniyada eramızın I əsrindən başlayaraq yayılmış və XIX əsrin birinci yarısına qədər özünəməxsus mədəni irs yaratmışdır.

Azərbaycan Albaniyasının memarlıq və digər abidələrində xalqımızın çoxəsrlik tarixi, memarlığı və incəsənəti əks olunmuşdur. Bu gün də bu abidələr qorunmalı, konservasiya edilərək gələcək nəsillərə onlar haqqında dolğun məlumat verilməlidir. Bununla da qonşu xristian ölkələrin Azərbaycan Albaniyasının mədəni irsinə məxsus Azərbaycanın maddi və mənəvi mədəniyyətinin bir hissəsi olan xristian abidələrini öz adlarına çıxmasının qarşısı alınmış olar.

Tədqiq edilmiş dissertasiyada qeyd edilən tarixi, arxeoloji, memarlıq və epiqrafik faktlar əsasında müəllif aşağıdakı nəticəyə gəlmişdir:

1) I-IV əsrləri əhatə edən birinci mərhələdə xristianlıq Roma imperiyası tərəfindən rəsmən tanınana qədər heç bir uğur əldə edə bilməmişdir. Milan edikti 313-cü ildə Roma imperiyasında qəbul edildikdən bir il sonra Albaniyada 314-cü ildə tətbiq edilmişdir. Nikeyada 325-ci ildə xristianlığın Roma imperiyasının dövlət dininə çevirmiş qərarı 326-cı ildə Albaniya dövləti tərəfindən də qəbul edilmişdir. Siyasi əhəmiyyət kəsb edən bu mərhələyə Alban çarı I Urnayr rəhbərlik etmişdir.

2) Tarixi ədəbiyyatda çar Urnayrın hakimiyyətdə olduğu illər 313-371-ci illər olduğu göstərilir. M.Kalankatuklunun "Alban tarixi" əsərində qeyd olunur ki, "Urnayrın ölümündən sonra albanlar gənc Qiriqorisi özlərinə katolikos seçdilər". Tarixi mənbələrə əsasən Qiriqoris 330-338-ci illərdə Albaniya və İberiyanın katolikosu olmuşdur. 330-371-ci illərdə hakimiyyətdə II Urnayr olmuşdur.

3) Vahid Albaniya dövlətinin varlığına son qoyulmasının 704-cü il Bərdədə çağırılmış kilsə məclisi ilə heç bir əlaqəsi yoxdur. Mehranilər sülaləsindən dördüncü hökmdar olaraq 705-ci ildə hakimiyyətini bərpa edən Varaz Tiridatdan 822-ci ildə öldürülən Varaz-Tiridat da daxil olmaqla dörd alban çarı hakimiyyətdə olmuşdur. Bu məlumat Albaniyada dövlətçiliyə ərəblər tərəfindən son qoyulma tarixini 705-ci ildən götürmə faktın inkar edir.

4) M.Kalankatuklunun yazdığına görə, "Erməni təqviminin üç yüzüncü ilinin axırında miladi təqvimlə 852-ci ildə erməni və Albaniya knyazları...ərəblər tərəfindən tutulub zəncirlənmiş halda evlərindən çıxarılaraq zorla Bağdada aparıldılar" Bu hadisədən on il sonra 861-ci ildə ilk feodal dövlət olan Şirvanşahlar öz müstəqilliyini elan etmiş və Albaniyanın tarixi torpaqlarında biri digərini əvəzləyən feodal dövlətləri yaranmağa başlamışdır.

5) Eretiya Alban dövləti knyaz Hammam tərəfindən IX əsrdə bərpa edilmiş və XI əsrin ilk on illiyinə qədər mövcud olmuşdur. XI əsrin sonunda Sünik çarı Senekərim tərəfindən bərpa edilən alban knyazlığını Arsax-Xaçın əvəz etmişdir. XII əsrdə knyazlıqlara parçalanan Arsax-Xaçın knyazları XV əsrdə məlik titulu alaraq Gəncəsərdə yerləşən Alban katolikoslarının dini lideri funksiyasını yerinə yetirmişlər. 1836-cı ildə Gəncəsərdə yerləşən Alban katolikosluğunun ləğvi ilə alban dövlətçiliyi

ənənəsi də ləğv edilmişdir.

6) Diofizit alban kilsələrinin altarı döşəmə səviyyəsindən 50 sm hündürlükdə, monofizitlik yayıldıqdan sonra isə 70 sm ilə 1 m arasında dəyişməsi müəyyən edilmişdir. M.Kalankatuklunun "Alban tarixi" də qeyd edildiyi kimi diofizit və monofizit kilsələrinin memarlığında əsas təriqət fərqi birbaşa səcdəgahla bağlı olmuşdur. Alban xristian abidələri əksəriyyəti düzbucaqlı formada tikilməsi ilə yanaşı, trapesvari quruluşa da malik olmuşdur.

7) IV-V əsrlərdə yaradılan Alban yazısının məhv olmasının birinci səbəbi şimal tayfalarının hücumlarının nəticəsi idisə, ikinci ən əsası VIII əsrdə dövlətçiliyin zəifləməsi ilə əlaqədar olaraq Alban dilində yazılmış ədəbiyyatın XX əsrin əvvəllərinə qədər erməni qriqoryan kilsəsi tərəfindən məqsədyönlü şəkildə məhv edilməsi olmuşdur. M.Kalankatuklu qeyd edir ki, Nerses Bakurun yerinə seçilən katolikos monofizit Simeon, bədbəxt Nersesin bütün küfrlə dolu əsərlərini sandıqlara qoyub öz yay iqamətgahı Bərdəkür yaxınlığında Tərtər çayına atdırdı. Həmin dövrdə Bərdə, Alban katolikosluğunun mərkəzi iqamətgahı olduğundan burada alban dini ilə əlaqədar və məhz alban dilində yazılmış sənədlər arxivinin olmasını qaçılmaz edir.

8) Xristianlığın Azərbaycan Albaniyasının sərhədləri daxilində və ondan kənarda ümumxalq dininə çevrilməsini yazılı və arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələrinə bir daha sübut etmişdir.

Dissertasiyanın əsas məzmunu aşağıdakı məqalələrdə nəşr edilmişdir.

1. N.Ə.Alışov. Qəbələ rayonunun xristian abidələri. «Azərbaycan Milli Elmlər Akademiyasının Aspirantlarının elmi konfransının materialları». Bakı, "Elm", 2009, s. 429-431.

2. N.Ə.Alışov. Qafqaz Albaniyasının xristian abidələrinin tədqiqi Azərbaycan tarixşünaslığında. «Tarix və onun problemləri» № 1-2, Bakı, "Elm" 2009, s 436-440.

3. N.Ə.Alışov. Qafqaz Albaniyasında xristianlığa qədərki dini görüş və inanclar. «Azərbaycan Milli Elmlər Akademiyasının Aspirantlarının elmi konfransının materialları». Bakı, "Elm", 2010, s. 390-392.

4. N.Ə.Alışov. Qafqaz Albaniyasında ilk xristian təriqətləri və onların mübarizəsi məsələlərinə dair. «Azərbaycan Arxeologiyası və Etnoqrafiyası» № 2, Bakı, "Nafta-Press" 2011, s. 75-83.

5. N.Ə.Alışov. Azərbaycan Respublikasının qərb bölgəsinin xristian abidələri və onların öyrənilməsinin əhəmiyyəti «Antik və orta əsr Azərbaycan səhərləri: arxeoloji irs, tarix və memarlığı. 27-28 oktyabr 2010. Azərbaycan, Şəmkir-Gədəbəy. Beynəlxalq elmi konfransın materialları». Bakı, "Çaşıoğlu", 2012, s. 221-225.

6. Н.А.Алышов. О памятнике Килсели тепе вблиз селения Абдаллы Габалинского района. «Труды Международной конференции, Место и Роль Кавказской Албании в истории Азербайджана и Кавказа». Баку, «Азербайджан Хава Йоллары» 2012, с. 337-341

7. N.Ə.Alışov. Qafqaz Albaniyasının IV-VIII əsr kilsələrinin Azərbaycanın maddi və mənəvi mədəniyyətində yeri. «Milli Azərbaycan tarixi Muzeyi». Bakı, "Elm" 2012, s. 248-261.

8. Н.А.Алышов. Археологические Исследования на христианском памятнике Кильсяли тере Габалинского района. «Azərbaycanın Qədim Şəhər Mədəniyyəti dünya urbanizasiya kontekstində, Beynəlxalq Konfransın Tezisləri», Qəbələ 6-10 noyabr 2012. Bakı "Xəzər Universiteti" 2012, s. 99-100.

9 Н.А.Алышов. Сведения об археологические исследования на христианском памятнике Кильсяли Тепе. «Казахский Национальный Университет имени Аль-Фараби. Вестник КазНУ», Серия историческая №4(71). Алматы "Казак университеті", 2013, с. 145-153

10. N.Ə.Alışov. Qarabağın xristian abidələrinin Azərbaycanın maddi mədəniyyətində yeri. «Azərbaycan Arxeologiyası», Cild 15 №1, Bakı "Xəzər Universiteti" 2012, s. 69-83

11. N.Ə.Alışov. Müstəqillik illərində Qafqaz Albaniyasının Xristian abidələrinin öyrənilməsinin Azərbaycan tarixi üçün əhəmiyyəti. «Azərbaycan Arxeologiya və Etnoqrafiya Elmləri Müstəqillik İllərində, Beynəlxalq Elmi Konfransın Materialları», Bakı, 10-14 noyabr 2013. Bakı, "Xəzər Universiteti" 2013, s. 171-172.

12. N.Ə.Alışov. Azərbaycanın Qax, Zaqatala və Balakən rayonları ərazisindəki xristian abidələri haqqında «Pedaqoji universitetin xəbərləri», № 1, Bakı, " ADPU-nun mətbəəsi" 2013, s. 95-103

**Н.А.АЛЫШОВ**

# ХРИСТИАНСКИЕ ПАМЯТНИКИ АЗЕРБАЙЖДАНСКОЙ АЛБАНИИ

**(на основе археологического материала)**

## РЕЗЮМЕ

Диссертационная работа посвящена археологическому изучению христианских памятников, составляющих неотъемлемую часть материальной и духовной культуры Азербайджанского Албанского государства.

Диссертация состоит из введения, трех глав и заключения, а также списка использованной литературы и иллюстраций. В «Введение» показана актуальность темы, ее значение, степень изученности. Здесь же нашли место цели и задачи, научная новизна, теоретические и методологические основы, научно-практическая значимость и апробация диссертации.

Первая глава «Христианство в Азербайджанской Албании» посвящена дохристианским верованиям, распространению на территории Азербайджанского Албанского государства христианства, а также анализу литературы, посвященной ранним христианским сектам, и использованию Сасанидским, Византийским государствами и Арабским халифатом их в своих целях.

Во второй главе «Анализ христианских памятников Азербайджанской Албании» рассматриваются пещерные церкви, круглые церкви, церкви-полуземлянки, крестообразные церкви, одно, двух и трехнефные, трапециевидные церкви, молельни, монастыри, погребальные и эпиграфические памятники и, проводится их сравнительный анализ.

В третьей главе «Место и роль христианских памятников в материальной и духовной культуре Азербайджана» исследованы, несущие в себе отпечатки христианских символов, образцы материальной и духовной культуры, обнаруженные в результате археологических и этнографических исследований.

В «Заключении» на основе исследуемой проблемы, даны результаты исследования.

**N.A.ALISHOV**

# CHRISTIAN MONUMENTS OF AZERBAIJAN ALBANIA (based on archaeological material)

## SUMMARY

The thesis is devoted to the archaeological study of Christian monuments, which form an integral part of the material and spiritual culture of the Azerbaijani Albanian state.

The thesis consists of an introduction, three chapters and a conclusion, and a list of references and illustrations. In “Introduction” the urgency of the topic, its importance, the degree of study. Here it is told about the objectives and responsibilities, scientific novelty, theoretical and methodological foundations, scientific and practical significance of the dissertation and approbation.

The first chapter is called “Christianity in Azerbaijan Albania” and it is devoted to the pre-Christian beliefs, the spread of Christianity on the territory of Azerbaijan Albanian state, as well as analysis of the literature related with the early Christian sects, and the use of them by the Sasanian, Byzantine Empire and the Arab Caliphate for their own ambitions.

In the second chapter of the thesis which is called “Analysis of Christian monuments of Azerbaijan Albania” cave church, round church, church-semi-dugouts, cruciform church, one, two and three-nave churches, trapezoidal church, chapel, monastery, burial and epigraphic monuments are studied and their comparative analysis is conducted.

In the third chapter of the thesis which is called “The place and importance of Christian monuments in the material and spiritual culture of Azerbaijan” samples of material and spiritual culture which have been discovered through archaeological and ethnographic research and which bear the imprint of Christian symbols are studied.

In the “Conclusion” on the basis of the research problem the results of the thesis have been shown in the sequence.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

***На правах рукописи***

**НАТИГ АБУЛЬФЕТ ОГЛУ АЛЫШОВ**

# ХРИСТИАНСКИЕ ПАМЯТНИКИ АЗЕРБАЙЖДАНСКОЙ АЛБАНИИ

(НА ОСНОВЕ АРХКОЛОГИЧЕСКОГО МАТЕРИАЛА)

**5505. 02-Археология**

**А В Т О Р Е Ф Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ-2014**